

Müsahibimiz Şirvan Şəhər Mədəniyyət və Turizm Şöbəsinin müdiri Əziz Abbasovdur. Onunla xidməti otağında görüşdük, son vaxtlar bölgədə həyata keçirilən tədbirlərdən,aparılan təmir-bərpa işlərindən, mədəniyyətimizin təbliği və inkişafı istiqamətində qazanılan uğurlardan söz açdıq. Həmin söhbəti sizin də diqqətinizə çatdırırıq.

# Uğurlarımız

## Bunda bütün müəssisələrimizin zəhməti var

- Şəbəkəmizə mərkəzi mədəniyyət evi, «Şirvan» mədəniyyət evi, 12 klub, 20 kitabxana, Heydər Əliyev muzeyi, tarix-diyarşünaslıq muzeyi, Dövlət Rəsm qalereyası, kinovideo birliyi, uşaq musiqi məktəbi, M.Füzuli adına mədəniyyət və istirahət parkı daxildir. Bu müəssisələrdə 284 nəfər, o cümlədən, 47 nəfər ali, 138 nəfər orta ixtisas və 46 nəfər orta təhsilli mütəxəssis, 56 nəfər texniki işçi çalışır. Mədəniyyət işçilərindən 218 nəfəri, başqa şəkildə desək 77 faizi qadınlar, 66 nəfəri (23faizi) isə kişilərdir.

Hesabat dövründə mədəniyyət müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi məqsədilə müəyyən işlər görülmüşdür. Mərkəzi mədəniyyət evi üçün ofis mebeli dəsti, 10 ədəd iki tumbalı stol, 3 ədəd şkaf, tarix-diyarşünaslıq muzeyi üçün 9 ədəd kitab rəfi, 30 ədəd stul, telefon aparatı, 3 ədəd asılqan, 4 ədəd şkaf, 60 m karniz, 2 ədəd kabelsiz mikrafon alınmışdır. Maddi-texniki bazanın möhkəmləndirilməsi məqsədilə ayrılan 55800 manatlıq vəsaitdən 31100 manatı əsaslı və cari təmirə, 21700 manatı isə invertar və avadanlıq alınmasına sərf edilmişdir.

Heydər Əliyev muzeyi üçün xüsusi layihə əsasında yeni bina tikilmişdir. Smeta dəyəri 980 min manat, 5 sərgi salonu və 1 böyük zaldan ibarət, ümumi sahəsi 450 kvadrat metrlik muzeydə 801 eksponat toplanmışdır.

Muzeyin açılışında möhtərəm prezidentimiz İlham Əliyev də iştirak etmişdir. Ölkəmizin başçısı Şirvanda olarkən şəhər mərkəzi mədəniyyət evində də olmuşdur.

Məlumat üçün bildirirəm ki, mədəniyyət evi 1958-ci ildə tikildiyindən yararsız hala düşmüşdü. Burada əsaslı bərpa və yenidənqurma işləri aparılmışdır. Müasir tələblərə cavab verir. 247 yerlikdir. Səhnə tərtibatı, işıq sistemi, tam dəyişdirilmiş standartlara uyğun avadanlıqlarla təmin olunmuş mərkəzi mədəniyyət evi indi bütün şirvanlıların doğma məkanına çevrilmişdir.

Mədəniyyət evləri və klublarda 2 xalq kollektivi, 11 bədii özfəaliyyət, 11 texniki, tətbiqi sənət dərnəyi, 11 pullu dərnək, 18 maraq klubu – bütövlükdə 53 həvəskar birlik fəaliyyət göstərir. Bu dərnəklər 532 nəfəri birləşdirir. «Şirvan» mədəniyyət evində ilk dəfə olaraq xareoqrafiya dərnəyi yaradılmışdır. Dərnəyin 20 nəfər üzvü vardır.

Mədəniyyət müəssisələrinin fəaliyyətində dövlət bayramlarının, tarixi əlamətdar günlərin, şair və yazıçıların, elm və mədəniyyət xadimlərinin yubileylərinin keçirilməsi həmişə olduğu kimi ön planda olmuşdur. Tədbirlərin yüksək səviyyədə təşkilində mərkəzi mədəniyyət evinin xalq teatrının, «Gənclik» instrumental ansamblının, «Şirvan» mədəniyyət evinin «Şirvan» instrumental ansamblının, uşaq musiqi məktəbinin xor, uşaq orkestri, skripkaçılar, nağaraçılar ansamblları və digər kollektivlərin xüsusi zəhmət payı vardır.

Nazirliyimizin təşkil etdiyi festival və müsabiqələrdə bizim istedadlar da yaxından iştirak etmişdir. Uşaq musiqi və incəsənət məktəbləri xor kollektivlərinin VI Respublika müsabiqəsində şəhər musiqi məktəbimizin xor kollektivi uğurlu çıxışına görə Mədəniyyət və Turizm Nazirliyinin fəxri fərmanı ilə təltif olunmuşdur.

Uşaq musiqi məktəbinin gənc müəllimi Elvin Məlikov (tar) və «Mahirlər» nağaraçılar ansamblı, gənc zurna-

çalan Rüstəm Allahyarov milli musiqi alətləri IV Respublika müsabiqəsinin Mingəçevir və Yevlax şəhərlərində keçirilmiş yekun turunda iştirak etmişlər. Bu nəcib tədbirdə fərqləndiyinə görə Elvin Məlikov nazirliyimizin fəxri fərmanına layiq görülmüşdür.

Xalq teatrının həvəskar aktyorları Sahil Nağızadə və Rəşad Əsədov «Deyilən söz yadigardır» IV Respublika bədii qiraət müsabiqəsinin Lənkəran şəhərində keçirilmiş yekun turunda, «İstedadlı uşaqlar» müsabiqəsinin qalibi Səbuhi Abdullazadə Bərdə şəhərində təşkil olunmuş yekun konsertində iştirak etmiş, nazirlik tərəfindən fəxri fərman və qiymətli hədiyyə ilə mükafatlandırılmışdır.

Şirvan şəhərində «Həvəskar rəssam və xalq tətbiqi sənət ustalarının əsərlərində islami dəyərlər» mövzusunda təşkil olunmuş sərgiyə 7 nəfər təmsilçimiz qatılmışdır. Nicat Əhmədzadə, Əşrəf Quliyev və Şəmistan Əhmədovun əsərləri Bakıda təşkil olunmuş yekun sərgisinə göndərilmişdir.

Dövlət rəsm qalereyasının dərnək üzvləri Lənkəranda keçirilmiş I Ümumrespublika dekarativ – tətbiqi sənət festivalında iştirak etmiş, onlardan Səkinə Abdullayeva və Sabir Şadlinskinin əsərləri Bakıda yekun sərgisində nümayiş olunmuşdur.

«Uşaq ili» çərsivəsində «istedadlı uşaqlar» adlı ifaçılıq müsabiqəsi, Heydər Əliyev və tarix-diyarşünaslıq muzeylərində uşaqlar üçün 227 ekskursiya, 3 açıq dərs, şəhər mərkəzi kitabxanasında «Mənim vətənim Azərbaycandır» adlı ədəbi-bədii gecə, «Təbiət və biz» adlı əyləncəli proqram, «Vətən və təbiət uşaqların sözündə» adlı ədəbi-bədii gecə, «Doğma vətənim Azərbaycan» adlı viktorina, «Milli-mənəvi dəyərlər: nə başa düşürsünüz?» adlı disput, «Əsirlikdə qalan yurd yerlərimiz» və «Kitab bilik mənbəyidir» adlı söhbətlər, «Yeni alınmış uşaq ədəbiyyatı» adlı kitab sərgisi təşkil edilmişdir.

Şirvan şəhərinin ekoloji vəziyyətini yüksəltmək məqsədilə bir sıra tədbirlər həyata keçirilmişdir. Xaqani küçəsi boyunca Heydər Əliyev parkı salınmış, ərazi genişləndirilmiş, gəzinti zolaqlarına metlax döşənmiş, süni şəlalə yaradılmış, həmişəyaşıl çəmənliklər salınmış, səkkizguşəli ləklər düzəldilmiş, çoxlu sayda ağac və gül kolları əkilmişdir.

Kür çayı sahilində yerləşən, ölkə əhəmiyyətli tarix və mədəniyyət abidələri siyahısına daxil edilmiş mədəniyyət və istirahət bağı əsaslı şəkildə yenidən qurulmuş, ərazi xeyli genişləndirilmişdir.

M.Ə.Rəsulzadə küçəsi boyunca uzanan, yaşıllıqlarla zəngin, əhalinin istirahət yerlərindən olan xiyabanda da yenidənqurma işləri aparılmış, yeni ağac və gül kolları əkilmişdir.

«Hərəyə bir ağac əkək!»kompaniyası yerlərdə böyük ruh yüksəkliyi ilə qarşılanmışdır. Bununla bağlı mühüm işlər görülür, hər həftənin şənbə günü iməcliklər təşkil olunur.

Təbii ki, mədəniyyət işçiləri həm də ekoloji biliklərin təbliği sahəsində də fəallıqları ilə seçilirlər.

Şirvan dövlət rəsm qalereyasında hər il ekologiyaya həsr olunmuş sərgi təşkil edilir. Burada əsasən uşaq, yeniyetmə və gənclərin çəkdikləri rəsmlər nümayiş olunmuşdur.

MKS-də oxunmuş «Ətraf mühitin qorunması Azərbaycan dövlətinin prioritet vəzifələrindəndir» mövzusunda məruzə, «Ekoloji təhlükəsizlik haqqında Azərbaycan Respublikasının Qanunu» ilə bağlı mühazirə, «Təbiəti qorumaq bəşəriyyəti qorumaqdır» mövzusunda söhbətlər, kitab sərgiləri, «Vətən və təbiət uşaqların sözündə» adlı ədəbi-bədii gecə, «Təbiət və biz» mövzusunda uşaqlar üçün əyləncəli proqram, B.Budaqovun «Təbiəti qoruyaq», K.Əsədovun «Meşələrin sərvəti», C.Cəbrayılbəylinin «Təbiət haqqında hekayələr» kitablarına həsr olunmuş biblioqrafik icmal, «Təbiətdə bildiklərimiz və bilmədiklərimiz» kitabının müzakirəsi də bu mənada «Ekologiya ili»nin maraqlı tədbirlərindəndir.

Bu və buna oxşar tədbirlər digər mədəni-maarif müəssisələrində, mədəniyyət evi, klub və muzeylərdə də həyata keçirilmişdir.

Mədəniyyət müəssisələrində hərbi-vətənpərvərlik, ailə, gənclik, Azərbaycan dili, narkomaniyaya qarşı mübarizə və s. bağlı tədbirlər də öz dolğunluğu ilə yadda qalmışdır.

Mədəni-maarif müəssisələrinin işindən danışarkən muzey və kitabxanaların fəaliyyəti haqqında söz açmamaq düzgün olmazdı. Hesabat dövrü ərzində MKS-də kitab fondu 183279 nüsxəyə, oxucuların sayı 21524 nəfərə bərabər olmuşdur. Latın qrafikalı ədəbiyyatın sayı 31504 nüsxədir. İl ərzində 2064 yeni ədəbiyyat daxil olunmuşdur.

Heydər Əliyev muzeyində eksponatların sayı 773, tarix-diyarşünaslıq muzeyində isə 10341 olmuşdur. İl ərzində bu muzeylərə müvafiq surətdə 7996 və 8034 nəfər gəlmişdir. Onlar üçün 373 ekskursiya, 5 açıq dərs, 12 sərgi, 6 ədəbi-bədii kompozisiya təşkil edilmiş, 63 mühazirə oxunmuşdur.

**Bu sadaladıqlarım gördüyümüz işlərin bir qismidir. Fəaliyyətimiz haqqında ilboyu müxtəlif qəzet və jurnallarda məqalələr dərc olunmuş, televiziyada maraqlı veriliş nümayiş etdirilmişdir.**

**● Bahar ZAYRALIQIZI**